*XX əsrdə Azərbaycan xalqının ən böyük nailiyyəti şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin yaradılmasıdır. Öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlətin möhkəm təməlini qoymuşdur.*

*Heydər Əliyev*

# MÜSTƏQİLLİK, MƏDƏNİYYƏT MÜƏSSİSƏLƏRİ VƏ ŞƏXSİYYƏTİN İNKİŞAFI

Sovetlər birliyi dağıldıqdan sonra Azərbaycan xalqının, Azərbaycan Respublikasının müstəqillik arzuları daha da reallaşdı. Xalqımız ikinci dəfə özünün əsl azadlığına, suverenliyinə, müstəqilliyinə nail olmaq, hüquqi dövlət yaratmaq və onu daha da inkişaf etdirmək imkanlarını əldə etdi. Yəni müstəqil olmaq, müstəqillik əldə etməklə doğma Azərbaycan Respublikamızı heç bir qüvvədən, dövlətdən asılı olmayaraq müstəqil surətdə inkişaf etmiş dünya ölkələri ilə hərtərfli əlaqə yaradaraq, millətini, vətəndaşlarını, iqtisadiyyatını, mədəniyyətini inkişaf etdirərək dünyəvi sivil ölkələr səviyyəsinə, sırasına çıxarmaqdır.

Xalqımızın ümummilli lideri, müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı, böyük azərbaycanlı Heydər Əliyev müstəqilliyimizin xalqımızın həyatında, tarixində cahanşümul əhəmiyyətini və rolunu çox yüksək qiymətləndirərək demişdir:

Azərbaycan müstəqil dövlətdir. Azərbaycanın Dövlət Müstəqilliyi tarixi hadisədir. Azərbaycan xalqının tarixi nailiyyətdir. Azərbaycan dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim borcumuz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti çatdırmaqdan ibarətdir. Azərbaycanın müstəqilliyi xalqımızın ən böyük milli sərvətidir.

Azərbaycanın müstəqilliyinin ilk illərində respublikamızda iqtisadi, ictimai-siyasi, mədəni və mənəvi, dövlətçilik, quruculuq işlərini qaydaya salmaq məhz müstəqil dövlətimizin banisi Heydər Əliyev tərəfindən həyata keçirilmişdir. Xalqımızın ümummilli lideri yeni, müstəqil respublikamızın atributları, tərkib hissəsi kimi adamlarımızın, şəxsiyyətin inkişafında mədəniyyətin, təhsilin, ədəbiyyatın və incəsənətin çox mühüm rol oynadığını və vacibliyini nəzərə alaraq bu sahəyə xüsusi diqqət və qayğı göstərirdi. Əlbəttə müstəqil dövlət qurmaq, onu daha da möhkəmləndirib inkişaf etdimək üçün hərtərəfli, savadlı, mədəni şəxsiyyətin yetişdirilib tərbiyə edilməsi də mühüm amillərdəndir. Çünki şəxsiyyətin hərtərəfli inkişafı, cəmiyyətdə insanlar arasında onun rolu, tutduğu mövqe onun dünyagörüşünü formalaşdırır, siyasi, mədəni, əxlaqi və mənəvi, bədii və estetik inkişafı bütün dövrlərdə, zamanlarda olduğu kimi müasir şəraitdə, müstəqillik illərində də aktuallıq kəsb edir.

Hazırda şəxsiyyətin inkişafı problemi bir çox aspektlərdən tədqiq edilir, sosioloji tədqiqatlar aparılır, əsərlər, monoqrafiyalar, dissertasiyalar yazılır və s. işlər aparılır. Ümumiyyətlə, müstəqillik həyatımızın mühüm tərkib hissəsi kimi bütün insanları düşündürən, məşğul edən vacib bir məsələyə çevrilir. Qeyd etməyi lazım bilirəm ki, sovetlər birliyi bu problemi marksist - leninçi metodologiyası nəzəriyyəsi, ideologiyası, prinsipləri, modelləri əsasında təbliğ edirdi. Şəxsiyyətin inkişaf məsələsinin qoyuluşu da Sovet İttifaqı Kommunist Partiyası proqramı, onun ayrılmaz tərkib hissəsi kimi kommunist tərbiyəsi, kommunist əxlaqı ilə səciyyələndirilirdi.

Bizim məqsədimiz müstəqil Azərbaycanımızın keçdiyi müstəqillik illəri ərzində digər sahələrlə yanaşı şəxsiyyətin inkişafının əsas yollarını, mühüm sahələrini, xüsusilə Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən mədəniyyət müəssisələrinin işini göstərməkdir. Müəllif geniş nəzəri materiallardan istifadə edərək özünün bu sahədə çoxillik fəaliyyəti nəticəsində Naxçıvan Respublikasının və onun bir çox tipli, sahəli mədəniyyət müəssisələrinin, mədəni-maarif ocaqlarının materialları ilə tanış olmuşdur. Naxçıvan Dövlət Teatrının, Naxçıvan Dövlət Filarmoniyasının, geniş surətdə fəaliyyət göstərən muzeylərin, kitabxanaların, mədəniyyət evlərinin, ali və orta ixtisas, orta məktəblərinin, Naxçıvan Dövlət Kukla Teatrı, musiqi məktəbləri, maarif və mədəniyyət müəssisələrinin işi və fəaliyyəti ilə tanışlıq, eləcə də ziyalılarla, müxtəlif peşə adamları ilə görüşlər, söhbətlər, aparılan sorğular bu mövzunun hal-hazırda böyük aktuallıq kəsb etməyinə zəmanət verir.

Son illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi rəhbərliyi tərəfindən mədəniyyət müəssisələrinin fəaliyyətinin daha da aktivləşməsinə, onların maddi - texniki bazasının möhkəmləndirilməsinə xüsusi qayğı göstərilir. Bu da Muxtar Respublika əhalisinin mədəniyyət müəssisələri ilə əlaqəsinin daha da yaxınlaşması və yaxşılaşdırılmasına geniş şərait yaradır. Müasir dövrdə, müstəqillik illərində şəxsiyyətin hərtərəfli inkişafı məsələsi, bütövlükdə insanların mədəniyyət müəssisələrində öz elmi, mənəvi, bədii-estetik inkişafı məsələsi bir çox aspektlərdən təhlil edilir, öyrənilir, yeni-yeni formalar, metodlar axtarılır. Düzdür, əvvəllər də mədəniyyət müəssisələrinin işi, fəaliyyəti, insanların asudə vaxtlarının səmərəli təşkili, onların hərtərəfli inkişafı məsələsi əsas vəzifə kimi istiqamətləndirilirdi. Bu gün isə müstəqil Azərbaycanın öz milli mədəniyyətinin, milli mentalitetinin geniş surətdə öyrənilməsi, hər bir şəxsə şamil edilməsi mədəniyyət müəssisələrimizin əsas vəzifəsi kimi qarşıya məqsəd qoyulmuşdur. Mövcud olduğu müstəqillik illərində Naxçıvan Muxtar Respublikamızın mədəniyyət müəssisələri, mədəni-maarif ocaqları tərəfindən elmi və bədii kütləvi işlərin, tədbirlərin səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşdırılmışdır. Bütövlükdə mədəniyyət müəssisələri xalqımızın mədəni irsinin toplandığı, qorunub saxlandığı, elmi cəhətdən araşdırılıb öyrənildiyi elmi və mədəni-maarif müəssisələri,

həmçinin bir çox mühüm əyani vasitələrlə teatr tamaşaları, kino filmləri, televiziya verilişləri, konsert tamaşaları vasitəsilə, kitabxanalar, muzeylər və başqa kütləvi tədbirlərlə insanlarımızın elmi və bədii dünyagörüşünün, mənəvi-estetik inkişafının yeni milli formalarının mənimsənilməsinə şərait yaradır. Son illərdə Naxçıvan Muxtar Respublikasında digər mədəniyyət müəssisələri ilə yanaşı muzey işi sahəsində böyük inkişafın şahidi oluruq. Bu sahədə aparılan tədqiqatlar, anket sorğuları, muzey tamaşaçıları ilə fərdi söhbətlərdən və digər bu kimi tədbirlərdən belə qənaətə gəlirik ki, digər mədəniyyət, mədəni-maarif müəssisələri kimi muzey və muzey tipli müəssisələrə, tarixi və mədəni memarlıq abidələrimizə maraq və gəliş ildən-ilə artır. Qeyd etməyi lazım bilirəm ki, son 10 ildə Naxçıvan Muxtar Respublika Ali Məclisi rəhbərliyinin xüsusi diqqəti və qayğısı nəticəsində səhiyyə, təhsil, elm, mədəniyyət müəssisələri ilə yanaşı muxtar respublikamızda mövcud muzeylərin, tarixi və mədəniyyət abidələrinin, istirahət mərkəzinin yaradılması, bərpa olunması işinə diqqət və qayğı xeyli artırılmışdır. Bütün bu tədbirlər adamlarımızın-ziyalılarımızın, gənclərimizin, hərbçilərimizin, bütövlükdə hər bir şəxsiyyətin mədəniyyət müəssisələrinə, muzeylərə, teatr-tamaşa salonlarına marağının daha da artmasına, tariximizin, mədəniyyətimizin, bugünkü müstəqil dövlətimizin, respublikamızın həyatının daha da yaxından öyrənilməsinə, bu işlərdə daha fəal iştirak etməsinə şərait yaradır. Muxtar Respublikamızın bütün şəhər və rayonlarında, qəsəbə və kəndlərində elm, təhsil, mədəniyyət və digər yerlərdə xalqımızın ümummilli lideri Heydər Əliyevin şərəfinə əzəmətli, görkəmli, görünüşlü heykəllər, abidələr, muzeylər yaradılmışdır və bu iş davam edir. Eləcə də, Xocalı soyqırımı, Qanlı 20 Yanvar faciəsi nəticəsində şəhid olmuş övladlarımızın şərəfinə əzəmətli, məzmunlu abidələr, heykəllər yaradılır. Naxçıvan şəhərində ulu Dədə Qorquda, Babəkə, Koroğluya, Əcəmi Naxçıvaniyə, böyük mütəfəkkirlərimiz Cəlil Məmmədquluzadəyə, Hüseyn Cavidə, M.S.Ordubadiyə, Bəhruz Kəngərliyə, böyük alim, akademik Yusif Məmmədəliyevə, hərb xadimi Cəmşid Naxçıvanskiyə ucaldılmış abidələr, "Şəhidlər" və "Ana" kompleksləri Muxtar Respublikada zəhmətkeşlərin ən çox ziyarət etdikləri məbədgah yerləridir. Bütün bunlar hər bir şəxsin, hər bir insanın, bütövlükdə adamlarımızın yaddaşında dərin izlər buraxır, vətəninə, xalqına, onun keçdiyi yola nəzər salmaqla mənimsənilməsinə nail olur.

Hər bir fərdin, bütövlükdə adamların hərtərfli inkişafının, mənəvi və bədii tərbiyəsinin, elmi dünyagörüşünün formalaşması və yüksəldilməsində muzeylər çox geniş sahəli və əhəmiyyətli işlər aparırlar. Ona görə də muzeylərin fəaliyyətini geniş təhlil etməyi ehtiyac bilirik. Müstəqil Azərbaycanın, dövlətimizin qurucusu və memarı, xalqımızın ümummilli lideri Hedər Əliyev muzeylərin rolunu və əhəmiyyətini qeyd edərək və yüksək qiymətləndirərək demişdir:

"Milli ənənələrimizin nə qədər dəyərli olduğunu dünyaya gələn yeni nəsillərə çatdırmaq və onları bu ənənələr əsasında tərbiyə etmək üçün muzeylər lazımdır".

Mövcud olduğu müstəqillik illərində Azərbaycanda muzeylər tərəfindən aparılan toplama işləri, elmi-kütləvi işlərin səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Əgər bir tərəfdən muzeylər maddi və mənəvi sərvətlərimizin toplandığı, elmi cəhətdən araşdırıldığı elmi-maarif müəssisələri kimi fəaliyyət göstərirsə, digər tərəfdən bu elmi, mədəni-maarif, mədəniyyət müəssisələri şəxsiyyətin, hər bir fərdin, cəmiyyətin, insanların dünya görüşünün, bədii-estetik, əxlaqi-mənəvi tələbatının inkişafına, onların fəallıqlarının artmasına əsaslı təsir göstərirlər.

Müstəqillik illərimizdə Naxçıvan Muxtar Respublikamızda muzeylərin fəaliyyət dairəsi, maddi-texniki bazası ilə yanaşı muzey xidməti işi də xeyli yüksəlmişdir. Qeyd etməyi lazım bilirəm ki, son on ildə Muxtar Respublikada Ali Məclis rəhbərliyinin xüsusi diqqət və qayğısı nəticəsində muzeylər bərpa, təmir olunmuş və yaxud uyğun binalara köçürülmüş, lazımi inventar və avadanlıqlarla təmin olunaraq, eksponatlarla zənginləşmişlər. Bu tədbirlər isə mədəniyyət, elm, mənəvi sərvətlər xəzinəsi olan muzeylərə marağın daha da artmasına, tariximizin, mədəniyyətimizin hərtərəfli öyrənilməsinə kömək edir, mənəvi-əxlaqi, bədii-estetik tərbiyənin formalaşması və zənginləşməsinə müsbət təsir göstərir.

Naxçıvan Muxtar Respublikamızda görkəmli şəxsiyyətlərin, elm, ədəbiyyat və mədəniyyət xadimlərinin, müstəqil Azərbaycan Respublikamızın azadlığı uğrunda qəhrəmanlıqlar göstərən vətəndaşlarımızın xatirələrinin əbədiləşdirilməsi məqsədilə muzeylər, abidələr, heykəllər, xiyabanlar, parklar və s. yaradılması ənənəyə çevrilmişdir. Naxçıvan Muxtar Respublikasının şəhər, rayon və kəndlərində, qəsəbələrində, orta məktəblərdə, hərbi hissələrdə, nazirlik və komitələrdə müxtəlif profilli muzeylər fəaliyyət göstərirlər.

XX əsrin 70-ci illərində - Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə və Azərbaycan müstəqillik qazandıqdan sonra Naxçıvan Muxtar Respublikasının rayonlarında tarix-diyarşünaslıq muzeyləri, M.S.Ordubadi, A.Y.Məmmədəliyev, H.Cavid, C.Məmmədquluzadə, C.Naxçıvanski, Cəlilkənddə, Nehrəmdə ev-xatirə muzeyləri, H.Əliyev, B.Kəngərli muzeyləri, Naxçıvan Dövlət xalça muzeyi, Açıq səma altında muzey, Naxçıvan Dövlət Rəsm Qalereyası, Rəssamlar Birliyinin sərgi salonu, "Xatirə muzey"ləri yaradılmışdır.

Naxçıvan Muxtar Respublikamızın Mədəniyyət Nazirliyi nəzdində çox zəngin ekponatlara malik olan muzeylərimiz vardır. Naxçıvan MR Dövlət Tarix muzeyi, Cəlil Məmmədquluzadə adına Naxçıvan MR Ədəbiyyat muzeyi, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Sədərək rayonlarında tarix-diyarşünaslıq, ev-xatirə muzeyləri və başqaları insanlara muzeydə və muzeydənkənar xidmət göstərirlər. Naxçıvan Dövlət Universitetində, "Universitet dünyası" muzeyi, Azərbaycan Kənd Təsərrüfatı muzeyi Naxçıvan filialı, Naxçıvan dövlət poliklinikasında akademik Zərifə xanım Əliyeva Xatirə muzeyi, Naxçıvan Müəllimlər İnstitutunda "Pedaqoji biliklər" muzeyi, təhsil müəssisələrində, hərbi hissələrdə müxtəlif növlü-profilli muzeylər, eləcə də ayrı-ayrı şəxslərin fərdi muzeyləri, kolleksiyaları mövcud olaraq adamlarımızı xalqımızın milli mənəvi dəyərləri, mədəniyyət tarixi və nümunələri ilə tanış edirlər.

Muzeylər vasitəsilə həyata keçirilən tədbirlər müstəqil Azərbaycan Respublikamızın ayrılmaz tərkib hissəsi, qədim elm və mədəniyyət diyarı naxçıvanlıların mənəvi mədəniyyətinin, bədii və estetik tərbiyəsinin, elmi dünyagörüşünün yüksəlməsinə müsbət təsir göstərir. Mədəniyyət, elm-maarif müəssisələri kimi muzeylərimizi məsul və şərəfli vəzifələr gözləyir. Müasir dövrdə hər bir muzey əməkdaşı muzeyi ziyarət edən tamaşaçıların arzu və istəklərini nəzərə alaraq onlara muzeylər haqqında ekskursiyalar, bilgilər verməlidirlər. Bu işdə muzey bələdçiləri, elmi işçilər, bütövlükdə muzey işçiləri ekskursiyalardan, mədəni və elmi-kütləvi tədbirlərdən istifadə etməlidirlər.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci çağırış altıncı sessiyasında Ali Məclisin sədri Vasif Talıbovun məruzəsində göstərdiyi kimi:

"Muxtar Respublikamızın mədəniyyət müəssisələrində kök salmış nöqsanların aradan qaldırılması üçün tədbirlərin görülməsi davam edir. Lakin demək olmaz ki, bu ardıcıl xarakter daşıyır...

... Bu gün yenidən qurulan, ən müasir standartlara uyğun olaraq fəaliyyət göstərmələri üçün hər cür şərait yaradılan muzeylərdə nəinki elmi tədqiqat işləri aparılmış, muzey əməkdaşları nəinki digər dillərdə, heç Azərbaycan dilində də mükəmməl məlumat verə bilmirlər"...

Məruzədəki nöqsanları aradan qaldırmaq məqsədilə Naxçıvan MR Mədəniyyət Nazirliyi rəhbərliyi səviyyəsində Muxtar Respublika Mədəniyyət işçilərinin müşavirəsi keçirilmiş, bütün sahələrlə yanaşı muzeylərdə də mövcud nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün muzeylərin fəaliyyətinə diqqəti artırmaq üçün tədbirlər müəyyənləşdirilmişdir.

Naxçıvan MR Mədəniyyət Nazirliyi nəzdində fəaliyyət göstərən muzeylərin işini elmi cəhətdən istiqamətləndirmək, onlara hər cür metodiki və əməli köməklik göstərmək məqsədilə Mədəniyyət Nazirliyi yanında ictimai əsaslarla "muzey işi üzrə elmi-metodiki şura" yaradılmışdır. Şuranın tərkibinə təcrübəli, peşəkar, yüksək ixtisaslı muzey işçiləri daxil edilmişdir. Muxtar Respublika muzeylərinin direktorlarının, baş fond mühafizlərinin, elmi əməkdaşlarının, bələdçilərinin və s. işçilərin iştirakı ilə ilk seminar, yığıncaq keçirilmişdir. Seminarda muzey işinin müxtəlif sahələrinə aid məruzələr, çıxışlar oldu. Seminar iştirakçıları Naxçıvan muzeylərinin ekspozisiyaları ilə tanış oldular, təcrübə mübadiləsi etdilər. Muzey işi üzrə elmi-metodiki şura iş planına əsasən xüsusilə rayon və kənd muzeylərində olur, iş planlarının, hesabatların tərtibi, fond işlərinin, qeydiyyat işlərinin, elmi-kütləvi tədbirlərin keçirilməsinin forma və metodları, ekspozisiya üzrə ekskursiya mətnlərinin hazırlanması və digər işlərdə onlara əməli və metodiki köməkliklər göstərirlər.

Hər bir fərdin, şəxsiyyətin, bütövlükdə müstəqil respublikamızın bütün vətəndaşlarının hərtərəfli inkişafı, onun doğma vətənə yüksək səviyyədə xidmət etməsi, xalqımızın ictimai-siyasi, mədəni-mənəvi həyatında yaxından və fəal iştirak etməsi mədəniyyət müəssisələrinin gündəlik işi olmalı, fəaliyyət normasına çevrilməlidir.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dövlət müstəqilliyini xalqımızın tarixi nailiyyəti adlandıraraq onun tərkib hissəsi olan mədəniyyət, mənəviyyat, tarixi şəxsiyyətlər, ədəbiyyat və incəsənət xadimlərimiz, mənəvi dəyərlərimiz haqqında çox yüksək fikirlər söyləmişdir:

1. İndi şükürlər olsun ki, Azərbaycan müstəqil bir dövlətdir. Dünyanın hansı ölkəsində, hansı yerində yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı hiss etməlidir ki, onun Azərbaycan kimi vətəni vardır... Hər bir azərbaycanlı da buraya ata ocağı kimi baxmalıdır.

2. Biz müstəqil Azərbaycan kimi əzəmətli bir abidənin təməlini qoyuruq, onu qururuq, yaradırıq. Bizim üzərimizə şərəfli vəzifə düşübdür və bunu layiqincə yerinə yetirməliyik. Güman edirəm ki, hər bir vətəndaş bu vəzifənin yerinə yetirilməsində öz yerini tapacaqdır.

3. Mədəniyyət bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir, onların mədəniyyəti bu yolla inkişaf edir.

4. Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər.

5. Ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır.

6. Əgər Azərbaycan xalqı müsəlman Şərqində ilk dəfə 1873-cü ildə milli teatr yaratmış və dünya mədəniyyətinə, Avropa mədəniyyətinə qovuşmuşsa, bu xalqın nə qədər mədəniyyəti var. O, nə qədər böyük mədəniyyətə, nə qədər yüksək intellektə malikdir və onun nə qədər daxili qüdrəti var.

7. Müstəqilliyimizi daimi etmək, ərazilərimizi bütün təcavüzlərdən, bugünkü və gələcək təcavüzlərdən qorumaq üçün cəmiyyətimizə, xalqımıza, ölkəmizə milli birlik, mənəvi həmrəylik, vətəndaş həmrəyliyi lazımdır.

8. Qurani-Şərifin bizə verdiyi tövsiyələr, dərs göstərdiyi yollar, insanları paklığa, düzlüyə, doğruluğa, sədaqətə, qəhrəmanlığa, cəsarətə, cəsurluğa dəvət edən tələblərdir, tövsiyələrdir.

9. Görkəmli şəxsiyyətlər xalqımızın zəkasını, elmini, mədəniyyətini, mənəviyyatını dünyaya nümayiş etdiriblər.

**Sübhi KƏNGƏRLİ,**
***əməkdar mədəniyyət işçisi, muzeyşünas***

**<u>İstifadə olunan ədəbiyyat:</u>**

**1. Heydər Əliyev. "Müstəqillik yolu". Bakı. 1997-ci il.**
**2. Heydər Əliyev muzeylərimizin yaradıcısı və memarıdır. Naxçıvan. 2003-cü il.**
**3. "Naxçıvan". İctimai-siyasi, ədəbi-bədii, elmi-publisistik jurnal. 2003-cü il, №9**
**4. "Şərq qapısı" qəzeti. 4 yanvar 2005-ci il.**